**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ KOLLEGİYASI**

**QƏRAR**

**№ Q/04**

**Bakı şəhəri** **“03” iyun 2013-cü il**

**“Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Nəqliyyat və Texniki-Təminat İdarəsinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında**

Dövlət Dəniz Administrasiyasının Kollegiyası “Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Nəqliyyat və Texniki-Təminat İdarəsinin yaradılması haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 4 aprel 2013-cü il tarixli, 57 nömrəli Qərarının 2-ci hissəsinə əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Nəqliyyat və Texniki-Təminat İdarəsinin Əsasnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).

2. Hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinə (F.Məmmədov) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sədr** **Qüdrət Qurbanov**